# Nəsibimiz aydın sabahlardır

2023-cü ilin tarixə qovuşmasına sayılı günlər qalır. Yaşanan, arxada qalan uğurlarla dolu həftələr, aylar qürurvericidir.





Ermənistan silahlı qüvvələrinin 30 il işğal altında saxladıqları, ölkəmizin dilbər guşəsi olan Qarabağı və Şərqi Zəngəzuru, sözün həqiqi mənasında, viran qoyduqları, xarabaya çevirdikləri kəndləri, şəhərləri azad edib yenidən qurmaq, ərazi bütövlüyünə qovuşan doğma yurdun hər qarışını cənnətə döndərmək istiqamətində atılan hər addım vətən eşqinin, torpaq sevgisinin gerçək təntənəsidir.

Hər kəsin qəbul etdiyi bir həqiqət var: Qarabağ deyəndə ilk yada düşən rayonlardan biri Ağdamdır. Elə ermənilərin ən çox qorxduqları, çəkindikləri də Ağdam olub. Bəlkə də buna görədir ki, işğal dövründə Ermənistan mərdlik, cəsarət, hünər, qəhrəmanlıq simvolu olan Ağdamı yerlə yeksan edib ruhlar şəhərinə çevirdilər. Şəhərdə, kəndlərdə daş üstə daş qalmadı. Son həyat işartısı da silinərək Ağdam ruhlar şəhərinə çevrildi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev vaxtilə Ağdama yüksək dəyər verərək deyirdi: "Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!"

Bu gün Ağdamda xoş ovqat, yüksək əhvali-ruhiyyə yaşanır. Qəhrəmanlıq səhifəsi yazan vətən sevdalı oğullar indi min bir həvəslə işğaldan azad olunmuş əraziləri, o sıradan Ağdamı yenidən qurur, müharibənin xarabalıqları üzərində yeni şəhərlər, kəndlər salırlar. Ağdamda müasir standartlar səviyyəsində yeni infrastruktur qurulur. Bölgəyə dəmir yolu çəkilişi başa çatmaq üzrədir. Yeni avtomobil yolunun tikintisinin yekunlaşmasına da çox qalmayıb. Kəndlər və şəhərlər isə "ağıllı" layihələr əsasında inşa olunur. Bütün bu işlərə bir sıra xarici dövlətlərin məşhur şirkətləri cəlb edilmişlər.

Torpağa qırılmaz tellərlə, sonsuz məhəbbətlə bağlı olan ağdamlılar indi könül xoşluğu ilə çalışır, həvəslə əkib-becərir, bolluq, firavanlıq yaradırlar. Cari ilin yanvar-sentyabr aylarında rayonda 180 milyon manata yaxın kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Rayonun təsərrüfatlarında 43 min tondan çox taxıl istehsal edilmiş, hər hektarın orta məhsuldarlığı 41,4 sentner olmuşdur.

Ağdam Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ramal Məmmədov bizimlə söhbətində kənd təsərrüfatı məhsulları istehsalının intensiv artımında dövlətin güclü dəstəyinin, verilən subsidiyaların əsas amil olduğunu vurğuladı. Növbəti təsərrüfat ilinin məhsul bolluğuna etibarlı bünövrə qoyulmasından da söz açan həmsöhbətimiz qeyd etdi ki, bunun üçün indidən zəruri tədbirlər görülür. Artıq 16200 hektardan çox sahədə payızlıq taxıl əkilmişdir. Dondurma şumunun aqrotexniki tələblər əsasında aparılmasına böyük önəm verilir, torpağın münbitliyini artırmaq üçün üzvi və mineral gübrələrdən səmərəli istifadə olunur.

Tarixi Qarabağ zəfəri bölgənin hər bir sakininə tükənməz qurub-yaratmaq əzmi verir. Qarabağlılar sabaha inamla baxırlar. Gələn il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə Ağdamda zəfər əhvali-ruhiyyəsi ilə hazırlıq görülür. Səsvermə hüququ olan hər kəs üçün seçim indidən aydındır. Qəhrəman Azərbaycan əsgərinin gücünü bacarıqla səfərbər edib düşmənin başına "dəmir yumruq" endirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan adlı müstəqil dövlətə rəhbərliyi şərəflə reallaşdırdığı tarixi xilaskarlıq missiyası ilə haqq edib. Qazandığı bu müqəddəs haqqı ona xalq verib və növbəti dəfə də verəcək. Buna heç kimin şübhəsi olmasın.

Artıq azad nəfəs alan, ərazi bütövlüyünə qovuşan, müstəqil bir dövlət olaraq öz inamlı addımlarını atan Azərbaycanın əngin səmasında qara buludlara yer yoxdur. Şükürlər olsun ki, igid oğullarımızın canı, qanı bahasına qazandığımız aydın sabahlardır, əmin-amanlıqdır, firavan həyatdır, xoş güzərandır. Bunları xaosa, anarxiyaya, özbaşınalığa dəyişməyə haqqımız yoxdur. Ən azından tarix bizi bağışlamaz.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 23 dekabr, № 281.- S.14.